İPƏK YOLU, No.3, 2025, səh.253-260
https://doi.org/10.30546/SI.2025.3.240.356

# ZAMAN ANLAYIŞINA NƏZƏRİ-FƏLSƏFİ YANAŞMALAR

**Cavid Zeynalov**

Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
e-mail: cavidzeynalasur@gmail.com

**Xülasə.** Məqalə qədim zamanlardan insanı ən çox maraqlandıran anlayış olan zamanla bağlı nəzəri-fəlsəfi yanaşmaların araşdırılmasına həsr olunmuşdur. Burada zaman anlayışı ilə bağlı antik fəlsəfə və xristian dini fəlsəfəsindəki yanaşmalar barədə məlumat verilmişdir. Daha sonra zaman anlayışı ilə bağlı fəlsəfi fikirlər bir neçə mütəfəkkirin fikirləri əsasında təqdim edilmiş, eləcə də bədii ədəbiyyatda zaman anlayışına dair nəzəri yanaşmalar tədqiq edilmişdir. Nəticə hissəsində təhlillər və mülahizələr ümumiləşdirilmişdir.

**Açar sözlər:** Zaman anlayışı, nəzəri-fəlsəfi yanaşmalar, xronotop, Mixail Baxtin.

**THEORETICAL-PHILOSOPHICAL APPROACHES TO THE CONCEPT OF TIME**

**Javid Zeynalov**
*Azerbaijan University of Languages, Baku, Azerbaijan*

**Abstract.** The article is devoted to the study of theoretical and philosophical approaches to time, a concept that has interested people the most since ancient times. The introductory part provides information about the approaches to the concept of time in ancient philosophy and Christian religious philosophy. In the first main part, philosophical ideas about the concept of time are given based on the ideas of several thinkers and in the second main part, theoretical approaches to the concept of time in fiction are studied. The conclusion summarizes the analysis and conclusions.
**Keywords:** Time, narrative, space, chronotope, Mikhail Bakhtin.

**ТЕОРЕТИКО-ФИЛОСОФСКИЕ ПОДХОДЫ К КОНЦЕПЦИИ ВРЕМЕНИ**

**Джавид Зейналов**
*Азербайджанский Университет Языков, Баку, Азербайджан*

**Резюме.** Статья посвящена исследованию теоретических и философских подходов к понятию времени, которое с древнейших времен интересовало человека больше всего. Во вводной части дается информация о подходах к понятию времени в античной философии и христианской религиозной философии. В первой основной части излагаются философские идеи о понятии времени, основанные на идеях ряда мыслителей, а во второй основной части рассматриваются теоретические подходы к понятию времени в художественной литературе. Заключение состоит из анализа и итогов работы.
**Ключевые слова:** Время, повествование, пространство, хронотоп, Михаил Бахтин.

## 1. Giriş

Minillərdir insan düşüncəsi zamanı hərəkət kimi qavramağa yönəlmişdir. Çünki vaxtın keçməsi və ya axıb getməsi insana ötəri, başqa cür desək, fani, ölümlü olduğunu xatırladır. Tədqiqatçı-alim Cozef Şipli özünün məşhur "Dünya ədəbiyyatı terminlər lüğəti"ndə (Dictionary of world literary terms) yazır: *"Zaman bütün tragediyalarda əsas qəhrəmandır: Leydi Maqbet xəyallar qurarkən, zaman ona krallıq ehtirasını gətirir. Faust həyatını yaşarkən, Hamlet tərəddüd edir. Zaman onların talelərini yazmaqda tələsir"* [17, s.334].

Zamanın əbədiliyi ilə başa çıxmaq üçün insanlar ilk dövrlərdə onu özlərindən ayrı olan ülvi, müqəddəs bir varlıq kimi qəbul edirdilər. Zamanın bu cür personafikasiyası (şəxslənməsi)

Antik Yunanıstanda qarşımıza çıxır. Yunan mifologiyasındakı Zaman tanrısı Xronos (Chronos) Xaosun oğludur. Onu, adətən, Geyanın və Uranın oğlu Kronosla qarışdırırlar. Bununla yanaşı, Antik Romada Saturn planeti Zaman tanrısı kimi qəbul edilirdi. Yunan sözü olan Xronos "kəsmək, bölmək, hissələrə ayırmaq" mənasına gələn (keiro) kökündən gəlir. Bəzi tədqiqatçılar iddia edir ki, hind-avropa dillərindəki "tutmaq" mənasına gələn "gher" feilindən və ya Zərdüştlərin müqəddəs kitabı olan "Avesta"dakı "zaman, müddət" mənasında işlənən "zram, zrum" sözündən törəyib [16, s.1].

Antik Yunanıstanda xronosdan başqa zamanla bağlı iki söz-termindən də istifadə edilib: "aion" və "kairos". "Aion" zamanın bir hissəsini, "kairos" isə bütöv bir anı ifadə etmək üçün istifadə edilib. "Aion"un mənası get-gedə başqalaşıb, belə ki, Homerdə həyati güc ifadə edərkən, Platonda ədəbi həyatı ifadə etməyə keçib [16, s.1].

Orta əsr fəlsəfəsinin iki vacib filosofu Müqəddəs Avqustin (354-430) və Foma Akvinalı (1225-1274) antik fəlsəfədəki "dairəvi zaman" anlayışının yerinə "xətti (linear) zaman" anlayışını gətirmişlər. Bütün orta əsrlərə təsir edən bu anlayış monoteist (təktanrılı) dinlərin də rəsmi zaman anlayışı olub [5, s.73]. Antik dövlərin "dairəvi zaman" anlayışında deyilirdi ki, tarix təkrarlardan ibarət dairəvi prosesdir. Xristinalıqla birlikdə belə bir düşüncə hakim oldu ki, tarix bir daha təkrarı olmayacaq hadisələrdən ibarət prosesdir. Xristianlığın bu fikrini sistematikləşdirən Müqəddəs Avqustin olub [8, s.137].

Zaman bizim onu qavrayışımızdan asılı olaraq ikibaşlı anlayışdır: mücərrəd-konkret, obyektiv-subyektiv, mütləq-nisbi. Əgər zaman anlayışını fəlsəfi və ya psixoloji bir forma kimi qəbul etsək, onda zaman mücərrəd anlayışdır. Əgər zaman anlayışını ölçülən və ya bölünən bir forma kimi qəbul etsək, onda zaman konkretdir. Lakin hər bir halda, zamanın mütləq xüsusiyyətlərini, adətən, "sonsuzluq, əbədiyyət, süreklilik, bölünməzlik" kimi sözlərlə ifadə edirik. "Sonsuzluq, əbədiyyət, süreklilik, bölünməzlik" kimi sözlər zamanın mütləq olmaqla yanaşı, eyni zamanda, mücərrəd tərəfləridir. Bu anlayışlar bədii əsərin dünyasındakı şəxslərin baxış bucağıyla məhdudlaşır və nisbi dəyərlər şəklində təqdim edilir. Məsələn, "Sonsuz yaz günləri..." kimi bir ifadə 70-80 illik bir ömrün içindəki sərhədləri bəlli sonsuzluqdur, yəni nisbidir.

Beləliklə, bir ədəbi əsərdə zaman anlayışı qəhrəmanın və ya təhkiyəçinin onu qavraması və hiss etməsinə görə formalaşır. Buna görə də hər hansı bədii əsərdə psixoloji zamanı araşdırarkən, əvvəlcə həmin əsərdəki "sonsuzluq, ötərilik, əbədiyyət" kimi fikirləri təsbit edirlər. Bədii əsərdə qəhrəmanın ya da təhkiyəçinin zamanın ötəriliyinə bəslədiyi münasibət əsərin aksioloji, yəni hisslər-duyğular müstəvisində təhlilinə imkan verir.

## 2. Zaman anlayışı ilə bağlı fəlsəfi-nəzəri fikirlər

Dil, zamanı məkan içinə yerləşdirərək onu konkretləşdirməyin digər yoludur. Bu yolla biz zamanı keçmiş, indi və gələcək olmaqla üçtərəfli şəkildə dərk edirik. Linqvistik zaman -

zamanın özü yox, mətndəki ifadəsidir. Deməli, burada söhbət zamandan yox, temporallıqdan gedir.

Çağdaş fenomenologiya və ekzistensializmə görə temporallıq insan idrakına bağlı olaraq dəyişən daxili zaman təcrübəsinin bir nəticəsidir. Edmund Hüsserl, Martin Haydegger, Jan Pol Sartr, Moris Merlo-Ponti kimi filosoflar, yazıçılar bu mövzu haqqındakı fikirləri ilə prozadakı temporallığın təzahürlərinə yeniliklər gətiriblər. Bu yeniliklər vasitəsilə nəsrdə daxili zaman və xarici zaman, temporallıq və müddət anlayışları bir-birindən ayrıldı. Belə ki, "müddət anlayışı - kəmiyyətə və homogen zaman ölçülərinə bağlıdır; temporallıq - keyfiyyətə və heterogen zaman aralığına, şüurun təcrübələrinə bağlıdır" [18, s.1]. Bu yeniliklər xüsusilə Berqson kimi filosofların təsirilə müddət anlayışının insan şüurunun bir nəsnəsi halına gətirdi.

Edvard Holl müxtəlif zaman növlərinin aralarındakı əlaqəni əsas götürərək müəyyən sistemə salmağa çalışıb. Belə ki, zaman anlayışını "dini, dünyəvi, metafizik, fiziki, bioloji və fərdi zaman" kimi qruplaşdırıb və onların hər birini özünəməxsus qaydaları olan fərqli fəzalar kimi dəyərləndirməyi təklif edib [9, s.150-151].

Eva Brann zaman anlayışını "xarici zaman" (external time) və daxili zaman (internal time) olmaqla iki yerə ayırır. O, Nyutonun mütləq zaman anlayışını, klassik fizikadakı hərəkətin rəmzi kimi götürülən zamanı, təqvim sistemlərini, tarixdəki vacib şəxsiyyətlərin ətrafındakı hadisələrə əsasən formalaşan epoxal zamanı - "xarici zaman" başlığının altına yığır. Bununla yanaşı, "xarici zaman" anlayışının əhatə dairəsinin içinə o, "əməli zaman" (operational time) kimi ifadə edilən saatlarla bağlı zamanı, "kainatın gündəlik saat", Enşteynin müşahidəçinin rakursuna bağlı olan "lokal saat" və canlıların gündəlik ritminə bağlı olan "bioloji saat" olmaq şərtilə üç yerə ayırır. "Daxili zaman" deyəndə isə o, insan şüurunun və fəhminin formalarına bağlı olan zamanı nəzərdə tutur [4, s.20-21].

Klassik fizika məkanı və ya kosmosu muxtar bir varlıq kimi qəbul edir, lakin modern fizika obyektsiz məkan anlayışını düzgün saymır. Bu fikrə görə obyekt hərəkətdədir, hərəkət də zamanın içində meydana gəldiyi üçün zamanı məkandan ayrı düşünmək olmaz [12, s.190]. Klassik fizikadan fərqli olaraq, Enşteynin "nisbilik nəzəriyyəsi"nə görə "əvvəl", "sonra" və "sinxronluq" kimi sözlərin mənası müşahidəçinin durduğu yerə görə dəyişir və nisbidir; müxtəlif referans sistemlərindəki müşahidəçilər üçün "indi" termininin mənası da dəyişir. Bu yanaşma, zamanın düzümü və səbəbiyyət məsələləri baxımından fəlsəfəyə, ədəbiyyata yeni baxış bucağı qazandırıb.

Nitşenin zamanın dairəviliyi və geri qayıtmazlığı problemi haqqında düşündüyü XIX əsrin axırlarına doğru nəzəri fiziklər də fiziki fenomenlərin yenilənməsini və geri qayıtmazlığı problemiylə əlləşirdilər. Termodinamikanın ikinci qanunu təbiət fenomenlərinin geri qaytarılmazlığını və ya enerjinin dağılmasını ifadə edərək "entropiya" anlayışının ortaya çıxmasına səbəb oldu [6, s.94]. "Entropiya" termodinamik bir sistemin başqa sistemlərə iş formasında ötürə biləcəyi enerji miqdarını göstərən xüsusiyyətdir. Bu qanuna görə, bütün enerji transformasiyaları geri qaytarılmazdır və qalaktikanın entropiyası artmaqdadır. Başqa cür

desək, hər saniyə müəyyən miqdar enerji artıq mexaniki enerjiyə çevriləməz hala gəlir və beləcə, kainat get-gedə "tükənmək"dədir [1, s.284].

XX əsrin əvvəllərində Nils Borun atomaltı hissəciklərlə bağlı araşdırmaları sayəsində formalaşan kvant fizikası zamana münasibəti dəyişdirib. Enşteynin nisbilik nəzəriyyəsinə görə zaman və məkan daim ölçülə bilən dəyişkənlərdir, kvant fizikasında əksinə, ani sıçrayışlarla bir vəziyyətdən digərinə keçmiş ola bilər. Atomlar, atomaltı hissəciklər və bunların bir-birilə münasibətini araşdıran kvant fizikasında zaman anlayışı yerin "an" termini keçərlidir. Hər bir hadisə bir anda baş verir və bu baxımdan hadisələr arasında davamlılıq yoxdur. Ancaq sübut kimi hər bir hadisənin səbəbi istəndiyi üçün bunu ifadə edəcək ara hissəciklər (dalğalar) axtarılır və eksperimental olaraq tapılmağa çalışılır. Bu nəzəriyyəyə görə, kainatda kəsintisiz bir bütövlük var və hər əşya digəri ilə bircə an içində kontakta girir. Hər bir an özlüyündə bütövdür və bir an ilə digər an arasında daimi əlaqənin olması məcburi deyil. An dediyimiz bu qısa zaman diliminə "Plank zamanı" deyilir. Bütün qalaktika bu "Plank zaman"ları arasında gah mövcud olur, gah yox olur [3, s.1].

Zaman anlayışının iki tərəfinin olması onun həm "obyektiv", həm "subyektiv" olmasından irəli gəlir. Hamımız obyektlər (əşyalar) dünyasının içində yaşayırıq. Dərk edə bildiyimiz və düşünə bildiyimiz hər şey əşyalar dünyasının bir hissəsidir. Zaman və məkan bu dərk edilən əşyalar dünyasının nizamı formalarıdır. Ernst von Aster bu obyektləri real zaman və məkana bağlı olub-olmamasına əsasən "real obyektlər" və "ideal obyektlər" olmaqla iki əsas sinfə ayırır.

"Real obyektlər" həqiqətə bağlı olanlardır, bunda görə də məkanda və zamanda mövcud olma tərzləridir. "Fiziki obyektlər" və "Ruhi obyektlər" bu qrupa daxildir. "Fiziki obyektlər" müəyyən məkanda və müəyyən zamanda mövcud olurlar. "Ruhi obyektlər" isə məkanla dolayı münasibət içindədirlər, ancaq həmişə müəyyən zamana aiddirlər. "İdeal obyektlər" isə zehnimizin yaratdığı, üstəgəl, obyektiv məkan və zamanla heç bir əlaqəsi yoxdur. "Riyazi obyektlər" və "Virtual obyektlər" bu qrupa aiddir [2, s.12].

### 3. Bədii ədəbiyyatda zaman anlayışına yanaşmalar

Məlum olduğu kimi, bədii ədəbiyyatda əsərin temporallığı onun məzmununun, yəni əsərdəki xəyali və ya real hadisələrin zamanıyla mətnin zamanı arasındakı ikilik şəklində xarakterizə edilir. Temporallıq və narrativ arasındakı əlaqədən söhbət düşəndə üç əsas yanaşmadan söhbət gedir:

1. Temporallığın ümumi, fəlsəfi görünüşü və onun sujet və diskurs səviyyəsi baxımından əhəmiyyəti;
2. Təhkiyənin sujet və diskurs səviyyələri arasındakı temporal əlaqə;
3. Linqvistikadakı temporal işarələr, feil zamanları və bunların narrativ səviyyədəki əhəmiyyəti [7, s.608].

Təhkiyədəki (narrativdəki) temporallığın bu cür müxtəlif səviyyələrdəki fenomenləri, mövzuyla bağlı fərqli yanaşmaların yaranmasına da zəmin yaratmışdır. Məsələn, Müqəddəs Avqustindən başlayaraq əhəmiyyət qazanan zamanın fəlsəfi görünüşləri, Berqsondan Pol Rikörə qədər xeyli araşdırmaçı tərəfindən təhkiyə ilə əlaqəsi baxımından tədqiq edilib. Bundan başqa, Conatan Kuller və Con K. Adamsın araşdırmalarıyla yanaşı, Pol Rikörün və Hayden Vaytın hekayənin strukturu və tərtib olunmasıyla bağlı düşüncələri, təhkiyənin teleologiyasına və səbəbiyyətə çox ciddi narratoloji anlayışlarla bağlıdır [7, s.608].

Narrativ mətnlərdə çox böyük əhəmiyyətə malik olan feil zamanlarının analiz edilməsi XX əsrin axırlarında narratoloji araşdırmaların çıxış nöqtəsi hesab edilir. Adolf Tobler (Vermischte Beitrage zur französichen Grammatik 1887; Mischung indirekter und direkter Rede in der Frage, 1900) və Çarlz Balli (Figures de pensee et formes linguistiques I-II, 1914), sərbəst dolaylı diskurs (free indirect discourse) kontekstində fransızcadakı imparfait zamanı təhkiyədə və dilçilikdə istifadə etməklə sözügedən prosesi başladıblar [7, s.117].

Təhkiyədəki sujet-fabula və diskurs müstəviləri arasındakı əlaqə təhkiyədəki temporal strukturun müəyyən edilməsi və mənalandırılmasında rol oynayan ən vacib tədqiqat mövzularından biridir. Bu ikili ziddiyət narratologiyanın "xronologiya" anlayışına yanaşmasını formalaşdırır. Təhkiyənin "sujet-fabula" mərhələsi hadisələrin düzümü, tərtibatıdır. Belə güman olunur ki, bu mərhələdə hadisələr xronoloji sırada ifadə edilir. "Diskurs" mərhələsi isə mətni əmələ gətirən səhifədə öz ifadəsini tapan sözlərin sırasını ifadə edir. Bu mərhələdə zaman sapmaları (anaxronizm), geri dönüşlər (fləşbəklər), irəli atılmalar yaratmaq üçün hadisələrin düzümündə müxtəlif yer dəyişmələr aparılır.

Bu günə qədər müxtəlif tədqiqatçılar bu ikili strukturu fərqli terminlərlə ifadə ediblər. Seymur Çatmanın "Hekayə və Diskurs: Bədii ədəbiyyatda və filmdə təhkiyə strukturaları" (Story and Discourse: Narrative structure in fiction and film, 1978) kitabında "hekayə-diskurs", E.M. Forsterin "Romanın aspektləri" (Aspects of the novel, 1974) kitabında "hekayə-sujet", Viktor Şklovskinin "Sənət texnika kimi" (Art as Technique, Russian formalist criticism: four essays, 1965) kitabında "fabula-sujet" kimi öz ifadəsini tapıb.

Jerar Jenet "Təhkiyə diskursu" (1972) əsərində təhkiyəni quran üçüncü elementi bu sıraya daxil etdi: diskursun yaradılması və diskursun kommunikativ strategiyalarının səviyyəsi. Jenetin modelində diskursun müstəvisi "nəqletmə" və "mətn" olmaqla iki yerə bölünür. "Nəqletmə" müstəvisi demək-danışmaq və yazmaq prosesini, "mətn" (tekst) isə bu prosesin linqvistik nəticəsini (yəni bitmiş əsəri) ifadə edir [7, s.609]. Nəticə etibarilə Jerar Jenet bir əsəri "hekayə" (histoire), "nəqletmə" (narration) və "təhkiyə" (recit) olmaqla üç mərhələyə ayıraraq analiz edib [10, s.41].

Bədii əsərin bu cür üç qata ayrılması strukturalist tənqidçiləri tərəfindən mətnin məkanlaşdırılması (spatializasiya) kimi şərh edilib. Fransız filosof və şərhşünas Pol Rikyörün (1913-2005) "Zaman və narrativ" (Temps et Recit) adlı üç cildlik əsəri təhkiyələrin mövcudluq funksiyasını analiz etməyi özünə məqsəd seçən hermenevtik, eləcə də narratologiya araşdırmalarının əsas kitablarından sayılır. Dörd hissədən ibarət olan "Zaman və narrativ"

əsərinin ilk iki hissəsi birinci cilddə, digər hissələri isə sonrakı iki cilddə toplanıb. Pol Rikyör "Zaman və narrativ" əsərinin birinci hissəsində nəzəri yanaşmanın əsas cizgilərini ifadə edib, digər üç hissədə isə həmin nəzəri tezisləri tarixi və bədii mətnlərindəki nümunələr əsasında şərh edib [15, s.8].

Rikyörün "Zaman və narrativ" əsərində, özünün dediyi kimi, əsas araşdırdığı məsələ, hekayə nəqletmə aktının necə təbii zamanı, müəyyən formalarda insana xas zamana (özü də riyazi və xronoloji "saat zamanın"sxematikliyinə düşmədən) çevirdiyini kəşf etməkdir. Onun fikrincə, ədəbi mətnlərdəki narrativ mexanizmlərin analizi bizə yeni sujet və keyfiyyət modusları yarada və yeni "zaman" strukturu formullaşdırmağın yollarını göstərə bilər [11, s.141].

Bir sənət hadisəsi dörd ünsür ətrafında ərsəyə gəlir: sənətçi, əsər, oxucu və cəmiyyət. Bu, zamana münasibətdə də dörd yanaşma ortaya çıxarıb: 1) sənətçinin və ya yazıçının zamanı; 2) əsəri zamanı; 3) oxucunun zamanı; 4) cəmiyyətin və ya əsərin yazıldığı dövrün zamanı. Bu yanaşmaların hər biri ədəbi əsərdəki zamana öz rakursundan baxır.

Ədəbi əsərə mətn-mərkəzli yanaşmalar 1910-cu illərdən sonra rus formalistlərinin qatqılarıyla başlayıb. 1915-30-cu illər arasında əsər yazmış rus formalistlərinin ciddi nümayəndələrinin içində Boris Tomaşevski, Osip Brik, Viktor Şklovski, Roman Yakobson və Vladimir Proppun adını çəkə bilərik.

Bu yanaşma araşdırmaçıları ədəbi əsərdə zamanı yox, temporallığı araşdırmağa yönləndirdi. Mətndəki temporallıq xarici aləmdəki reallıq müstəvisindəki yox, mətnin dünyasında, yazıçının hadisələri tərtib etməsində axtarılmağa başlandı. Bu mənada fabula/sujet kimi iki fərqli termindən istifadə etdilər. Fabula (əhvalat) hadisələrin (real həyatdakına uyğun) xronoloji düzümüdür; süjet isə bu xronoji düzümün mətndə ifadə edilməsidir. Beləcə, sujet termini həm təhkiyəni (narrativ), həm də nəqletməni (narrasiya) əhatə edir [10, s.46].

Boris Tomaşevski bu ayrımdan çıxış edərək fabula zamanı ilə sujet zamanını da bir-birindən ayırmalı olduğumuzu deyir. Fabula zamanı - hadisələrin içində baş verdiyini ehtimal etdiyimiz zamandır; sujet zamanı isə əsərin mütaliəsi üçün (ya da tamaşanın müddəti üçün) lazım olan zamandır. Tomaşevskinin fikrincə, fabula və ya sujet zamanı bir əsərdə hadisənin tarixinin göstərilməsi, onun hansı zamana yayıldığının qeyd edilməsi, yaxud vaxt təəssüratını yaratmaqla bağlıdır [19, s.263].

Yeni Tənqid (New Criticism) adıyla məşhurlaşan Anqlo-Amerikan formalistlərindən R. Vellek və A. Vorren sənət əsərinin bir-birilə əlaqəli heterogen təbəqələrdən əmələ gəldiyini müdafiə edirlər. Vellek və Vorren bədii əsəri mövcudluq tərzini, yaxud ontoloji strukturunu zamanla əlaqəsi baxımdan dəyərləndirirlər. Orqanik bütövlük olaraq ifadə etdikləri sənət əsəri, eynilə fərd kimi, zamanın müəyyən nöqtəsində doğulur, tarixin axarı içində dəyişir, hətta yox ola bilər; bu baxımdan zamanın içindədir. Digər tərəfdən, əgər sənət əsərinin mətni mühafizə edilibsə, deməli, yaranışdan bu yana dəyişməz qalan strukturu var; bu baxımdan isə ona zamandan kənar demək olar. Ancaq sənət əsərinin bu təməl strukturu həm də dinamikdir. O,

tarixi proses boyunca oxucularının, tənqidçilərin və sonra sənətçilərin düşüncələrindən keçərkən dəyişir. Vellek və Vorrenin ifadəsilə, sənət əsərinin mütləq, dəyişməyən strukturu, bu nisbi baxış bucaqlarının içində gizlidir.

Amerikalı tənqidçi Nortrop Fray dağınıq, sistemsiz hesab etdiyi Yeni Tənqid modelinə qarşı mifoloji model yaratmış və bu sistemi özünün "Tənqidin anatomiyası" (1957) adlı kitabında ifadə etmişdir. Frayın nəzəriyyəsinə görə, eyni zamanda olduğu kimi, ədəbiyyatda da dairəvi bir hərəkət mövcuddur. Fray nəzəriyyəsi birbaşa zamanla, fəsillərlə bağlıdır. O, əvvəlcə "komediya, romans, tragediya və həcv" kimi dörd növ müəyyənləşdirir və bunları ilin dörd fəslinə uyğunlaşdırır. Bu sıraya görə, komediya - bahar, romans - yaz, payız - tragediya, həcv - qışa uyğun gəlir. Onun fikrincə, dinamika mifdən həcvə doğrudur, ancaq sonradan yenidən mifə qayıdır [13, s.206].

Vladimir Propp rus formalistlərdən sayılsa da, onun "Nağılın morfologiyası" (1928) adlı kitabı fransız strukturalistləri üçün çıxış nöqtəsi olmuşdur. Propp personajların sujet içindəki mənalarına görə təyin edilən hərəkətlərə "funksiya" deyir. Bununla da müxtəlif nağıllarda, müxtəlif qəhrəmanların həyata keçirdikləri davamlılığı olan aktlarla bağlı 31 funksiya təsbit edir. Beləlik, rus xalq nağıllarından yola çıxaraq ortaq struktura, ümumi prinsiplərə çıxmış olur [14, s.38].

Proppun fikrincə, əsərlərdə xronoloji nizam sıradan çıxarmaq mümkün deyil. O deyir ki, zaman həqiqətin özüdür, buna görə də nağılı zamanın içində yerləşdirmək lazımdır. Propp, bu formada, bir əsərdəki əsas sujet strukturunu təhlil edərkən, əsərin sujetini meydana gətirən bu vahidlər arasındakı dəyişməyən temporal əlaqəyə də vurğu salır. Proppun ifadəsiylə desək, "bütün qəhrəmanlar, nağıldakı başlanğıc vəziyyətinə uyğun olaraq səhnəyə qoyulur" [14, s.128].

Umberto Eko (1932-2016) özünəməxsus şəkildə inkişaf etdirdiyi reseptiv semiotika yanaşması ilə oxucu-mərkəzli nəzəriyyəçilər arasında çox vacib yer tutur. Bu yanaşmaya görə oxucu müəllifin mətndəki buraxdığı boşluqları şərh edərək mənanı tamamlamağa çalışır. Abstrakt, ideoloji səviyyədə müəllifin açdığı boşluqlar oxucu tərəfindən tamamlanır. Ekonun fikrincə, boşluqları oxucu tərəfindən asanlıqla doldurulan mətnlər "qapalı mətnlər"dir. Ancaq müəllifin öz fikrini geri planda saxladığı, ənənəvi qəliblərdən və formalardan kənara çıxdığı, oxucunun mətnə daha çox cəlb edildiyi mətnlər "açıq mətnlər"dir. Bütün oxucu-mərkəzli nəzəriyyələrdə olduğu kimi, Ekonun yanaşmasında da zamana münasibətdə əsas məqam "oxucunun zamanı"dır. "Oxucunun zamanı" anlayışı oxucu mətni oxuyarkən mütaliə müddətini, proses boyunca görünən psixoloji zamanı, Ekonun "ensiklopediya" dediyi, "bütün ictimai, kulturoloji qazancını" əhatə edir.

**Nəticə.** Beləliklə, zaman fenomeni bütün dövrlərdə istər elm, istərsə də fəlsəfədə xeyli müzakirə edilən mövzulardandır. Zaman anlayışının dərki cəmiyyətdən cəmiyyətə, fərddən fərdə, mədəniyyətdən mədəniyyətə dəyişdiyindən çoxtərəfli, çoxşaxəlidir. Düşünürük ki, bu çoxtərəflilik, müxtəlif sahələrin optikasından fərqli görünmək zamanın subyektiv xassəsidir və onu unikal edən xüsusiyyətidir. Bütün bəşəriyyət və insanlar tərəfindən hamılıqla qəbul edilən

ortaq cəhət isə zamanın bizli-bizsiz mövcud olduğu və fasiləsiz şəkildə keçmişdən gələcəyə doğru hərəkətdə olmasıdır.

**Ədəbiyyat**

1. Ana Britannica Genel Kültür Ansiklopedisi, Cilt 11.
2. Aster V.E. (1994), Bilgi Teorisi ve Mantık. Çeviren: Macit Gökberk, İstanbul: Sosyal Yayınlar.
3. Berkmen H. (2010), Olasılıklar fiziği kuantum. Röp.: Gülşen Kaş. İndigo dergisi, 58. www.indigodergisi.com
4. Brann E. (2001), What, Then, is Time? United States of America: Rowman & Littletield Publishers.
5. Çüçen A.K. (1996), Ortaçağ Felsefesinde Zaman Kavramı. Felsefe Dünyası, Felsefe ve Sosyal Bilimler Dergisi, 73-79.
6. Dauer D.W. (1997), Nietzsche ve Zaman Kavramı. Çevirenler: Alp Tümer-Tekin, Cogito, Zaman: 12-ye 1 var, S.11, 2.bs, 83-100. İstanbul: Yapı Kredi Yayınları.
7. Fludernik M. (2009), An Introduction to Narratology. London and New York: Routledge.
8. Gökberk M. (2003), Felsefe Tarihi, 14.bs. İstanbul: Remzi Kitabevi.
9. Hall E.T. (1997), Kaç çeşit zaman var? (Orijinal kaynak: The Dance of Life, 1984). Çeviren: Doğan Şahiner, Cogito, Zaman: 12-ye 1 var, s.11, yıl: 1997, 2.bs. 149-152. İstanbul: Yapı Kredi Yayınları.
10. Herman L., Vervaeck B. (2005), Handbook of Narrative Analysis. Lincoln and London: University of Nebraska Press.
11. Kearney R. (1981), Paul Ricoerla Söyleşi. Çevirenler: Elis Simson, Cogito, Paul Ricoer, Özel sayı, s.56, yıl: 2008, 141-159. İstanbul: Yapı Kredi Yayınları.
12. Küken G. (1997), Doğu Ortaçağında Zaman Kavramı. Cogito, Zaman: 12-ye 1 var, s.11, yıl: 1997, 2.bs., 181-190. İstanbul: Yapı Kredi Yayınları.
13. Moran B. (1994), Edebiyat Kuramları ve Eleştiri. İstanbul: Cem Yayınevi.
14. Propp V. (1987), Masalların Yapısı ve İncelenmesi. Çeviren: Hüseyin Gümüş. Ankara: Kültür ve Turizm Bakanlığı Yayınları.
15. Ricoeur P. (2012), Zaman ve Anlatı 3 - Kurmaca Anlatıda Zamanın Biçimlenişi. Çevirenler: Mehmet Rifat, Sema Rifat. İstanbul: Yapı Kredi Yayınları.
16. Schüler D. (2009), Khronos. Dictionnaire international des termes litteraores. http://www.flsh.unilim.fr/ditl/KHRONOS.html
17. Shipley J.T. (1970), Dictionary of World Literary Terms. Boston: Writer, 466.
18. Thubieres S. (2010), Temporalite/Temporality. http://www.flsh.unilim.fr/ditl/TEMPORALİTE.html
19. Todorov T. (2005), Yazın Kuramı-Rus Biçimcilerinin Metinleri. Çevirenler: Mehmet Rifat, Sema Rifat, Yapı Kredi Yayınları.